

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 142 (21.552)

3 avqust 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri, Azərbaycan və İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Mahmud Vaezinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli əlaqələrin gündəliyinin çox geniş olduğunu, demək olar ki, bütün sahələri əhatə etdiyini və çox yaxşı nəticələr əldə olunduğunu deyib. Ölkələrimiz arasında münasibətlərin genişləndirilməsində İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri, Azərbaycan və İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Mahmud Vaezinin rolunu xüsusi qeyd edən Prezident İlham Əliyev onun fəaliyyətini yüksək qiymətləndirib.

Mahmud Vaezi ölkələrimiz arasında ikitərəfli əlaqələrin və dost münasibətlərin genişləndirilməsində Prezident İlham Əliyevin rolunu xüsusi qeyd edib.

Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, Xəzər dənizində əməkdaşlıq məsələləri müzakirə edilib, energetika, neft-qaz, nəqliyyat, sərmayə qoyuluşu, maliyyə, bank, kənd təsərrüfatı, turizm və səhiyyə sahələrində əlaqələrin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



## Naxçıvan Muxtar Respublikasının yüksək dağlıq və sərhəd ərazilərində etibarlı müdafiə sistemi yaradılmışdır





Bu gün Naxçıvan dağlarının əzəmət və qüdrətini həm də onun zirvəsində Vətənin keşiyini çəkən Azərbaycan əsgərləri artırır. Sinəsini düşmənə sipər edən vətən oğulları torpaqlarımızı etibarlı müdafiə edirlər. Artıq muxtar respublikanın çətin dağlıq şəraitdə yerləşən bütün hərbi hissələri yüksək maddi-texniki bazaya və döyüş qabiliyyətinə malikdir. Xalq-ordu birliyi, peşəkar və vətənpərvər şəxsi heyət bu ərazilərdə xidmətin nümunəvi təşkilinə imkan verir.

Avqustun 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ordubad rayonunda sərhəd və dağlıq şəraitdə yerləşən hərbi hissələrdə xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə maraqlanmışdır.

Əsgərləri salamlayan Ali Məclisin Sədri demişdir: Bu gün siz düşmənlə sərhəddə xidməti vəzifələrinizi yerinə yetirirsiniz. Təbiət baxımından zəngin olan bu ərazilərdə kənd təsərrüfatının inkişaf etdirilməsi üçün hərtərəfli şərait vardır. Hərbi qulluqçuların xidməti vəzifələrini uğurla yerinə yetirmələrinin nəticəsidir ki, sərhədlərimiz etibarlı qorunur, insanlarımız bu ərazidə məskən salır, təsərrüfatlarını genişləndirir, rahat və təhlükəsiz yaşayırlar.

Ali Məclisin Sədri xidməti vəzifələrini uğurla yerinə yetirdiklərinə görə şəxsi heyətə təşəkkür etmişdir.

Ali Məclisin Sədri demişdir: Hər bir ölkədə sabitliyin və inkişafın təmin olunmasında əsas amillərdən biri də sərhədlərin etibarlı müdafiə olunmasıdır. Muxtar respublikanın bu ərazisində yerləşən kənd yaşayış məntəqələrində insanların rahat yaşaması və məskunlaşması üçün lazımi şərait yaradılıb, yeni sosial obyektlər tikilib istifadəyə verilib. Həmçinin hərbi hissə üçün də bina tikilmiş, xidmətin hərtərəfli təşkili üçün bütün şərait yaradılmışdır. Gələcəkdə də bu tədbirlər davam etdiriləcəkdir. Bütün bunların müqabilində isə hərbi qulluqçular xidmətlərini nümunəvi təşkil etməli, sərhədlərimiz etibarlı qorunmalıdır.



Ali Məclisin Sədri xidməti vəzifələrinin yerinə yetirilməsində şəxsi heyətə uğurlar arzulamışdır.

Baş leytenant Vüsal Qasımov və əsgər Vəli Axundlu şəxsi heyət adından minnətdarlıq edərək demişlər ki, vətənə xidmət şərəf işidir. Yüksək dağlıq şəraitdə torpaqlarımızın müdafiəsində dayanmaq isə ikiqat qürurvericidir. Əsgərlərin döyüş ruhu və mənəvi-psixoloji hazırlığı yüksəkdir. Şəxsi heyət arasında birlik və bərabərlik vardır. Bu gün ordumuz ona görə güclüdür ki, o, qüdrətli dövlətimizə və xalqımıza arxalanır. Ali Məclis Sədrinin əsgərlərlə görüşməsi onların məsuliyyətini artırır. Çıxış edənlər həmçinin bildirmişlər ki, bundan sonra da torpaqlarımızın keşiyində ayıq-sayıq dayanacaq, “bir nəfər hamı, hamı bir nəfər üçün” şüarına əməl edərək xidməti borclarını şərəflə yerinə yetirəcəklər.

Sonra Ali Məclisin Sədri əsgərlərin məişət şəraiti ilə maraqlanmışdır.

Bildirilmişdir ki, hərbi hissədə əsgərlərin qidalanması, yaşayışın və xidmətin nümunəvi təşkili üçün bütün tədbirlər görülmüşdür. Binada yataqxana, yeməkxana, ərzaq və əşya anbarları, tibb və ideoloji otaqlar vardır. Günün nizam qaydasına uyğun olaraq əsgərlərin fiziki hazırlığına, təlimlərdə iştirakına, qidalanmasına və sağlamlıqlarının qorunmasına ciddi diqqət yetirilir, şəxsi heyət mütəmadi olaraq tibbi müayinədən keçirilir.

Müdafiə qüdrətinin gücləndirilməsi və əlverişli hücum mövqeyinin seçilməsi, hərbi hissənin əhatə etdiyi postların müasir döyüş texnikaları və silahlarla təmin olunması, postlar arasında yol və dayanıqlı rabitə əlaqələrinin yaradılması xidmətin səmərəli təşkilinə imkan verir.

Sonra Ali Məclisin Sədri Culfa rayonunun Ləkətağ kəndində yerləşən hərbi hissəyə gəlmiş, əsgər və zabitlərlə görüşmüşdür.

Ali Məclisin Sədri demişdir: Bu gün Azərbaycanda sabitlik və iqtisadi inkişaf vardır. Ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər sabitliyi, sabitlik isə iqtisadi inkişafı təmin etmişdir. Vaxtilə bu ərazilərdə heyvandarlıqla məşğul olanlar çətinliklərlə qarşılaşırdı. Bu gün isə ərazidə onlarla oba vardır. Çünki sərhədlərimizdə hərbi xidmət nümunəvi təşkil olunmuşdur. Oba sakinləri öz təsərrüfatlarında on minlərlə heyvan saxlayır, yaylaqlardan təhlükəsiz və səmərəli istifadə edirlər. Onlar ordumuza arxalanaraq düşmənlə sərhəddə öz ailələri ilə məskən salırlar. Bütün bunlar bir daha təsdiq edir ki, vətəndaşlarımız öz ordusuna, əsgərinə güvənir. Eyni zamanda bütün bunlar ölkəmizdə ordu quruculuğu və iqtisadi inkişafın təmin olunması sahəsində həyata keçirilən tədbirlərin nəticəsi, xalq-ordu birliyinin daha bir ifadəsidir.

Ali Məclisin Sədri demişdir: Yüksək dağ şəraitində yerləşən hərbi hissələrdə xidmət bundan sonra da nümunəvi təşkil olunmalıdır. Çünki hərbi xidmətin uğurla yerinə yetirilməsi, sərhədlərimizin qorunması sabitliyin təmin olunmasına, sakinlərin öz kəndlərində, heyvandarların isə yaylaqlarda rahat və təhlükəsiz yaşamasına imkan verir.

Xidməti vəzifələrini uğurla yerinə yetirdiklərinə görə şəxsi heyətə Ali Məclisin Sədri adından təşəkkür elan edilmişdir.

Kapitan Rüfət Orucov və əsgər Naim Kərim demişlər ki, dağ şəraitində xidmət edən əsgər və zabitlər üçün bütün şərait yaradılıb. Hərbi qulluqçularla görüşlər isə onların döyüş ruhunu daha da artırır. Vətənə sədaqətlə xidmət etmək, torpaqlarımızı, dövlətimizi, xalqımızı müdafiə etmək hər bir hərbi qulluqçunun qarşısında duran ən başlıca vəzifədir. Düşmən bilməlidir ki, qüdrətli Azərbaycan əsgəri istənilən döyüş tapşırığını yerinə yetirmək əzmindədir.

Həmin gün Ali Məclisin Sədri oba sakinlərinin təhlükəsizliyini təmin etmək məqsədilə ərazidə xidmət aparan Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının hərbi qulluqçuları ilə də görüşmüş, xidmətin təşkili ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

Gətirilmiş müxtəlif ərzaq məhsulları hərbi hissələrin anbarlarına təhvil verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Ordubad yaylaqlarındakı obaların sayı ilbəil artır

Muxtar respublikada heyvandarlığın inkişafı sahəsində ardıcıl tədbirlər görülür. Bu sahə ilə məşğul olan insanlar üçün lazımi şərait yaradılır. Uca dağların əhatəsində yerləşən Ordubad yaylaqlarında da hər il heyvandarlar məskən salır, obalar qurulur. Oba sakinləri rahat və təhlükəsiz şəraitdə təsərrüfatla məşğul olurlar.

Avqustun 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ordubad yaylaqlarına gəlmiş, oba sakinləri ilə görüşmüşdür.

Oba sakinlərini salamlayan Ali Məclisin Sədri demişdir: Yaylaqlardan istifadə etmək üçün hərtərəfli şərait yaradılıb. Ona görə də heyvandarlar öz təsərrüfatlarını artırır, bol kənd təsərrüfatı məhsulları istehsal olunur, bazarın tələbatı ödənilir. Bu tədbirlər ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlərin tərkib hissəsidir.







Dövlətimiz kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirir. Oba sakinləri ilə əlaqə saxlanılır, qarşılaşdıqları bütün çətinliklər həll olunur, istehsal etdikləri məhsulların satışı üçün hərtərəfli şərait yaradılır. Heyvanlar arasında xəstəliklərin baş verməməsi üçün mütəmadi baytarlıq xidməti göstərilir. Bu tədbirlər gələcəkdə də davam etdiriləcəkdir. Ona görə də heyvandarlıqla məşğul olan şəxslər yaradılan şəraitdən səmərəli istifadə etməli, təsərrüfatlar genişləndirilməlidir.

Heyvandarlardan Nişan Abdullayev, Elşən Abdullayev, Əmir Məmmədov, Nazim Abdullayev, Tolik Abdullayev, Telman Hüseynov, Araz Məmmədov, Yolçu Kərimov, Münasib Mirzəyev və Qəzənfər Qurbanov Ali Məclisin Sədrinə minnətdarlıq etmişlər. Oba sakinləri demişlər ki, biz daim dövlətin qayğısını üzərimizdə hiss edirik. Yaylaqlardan rahat və təhlükəsiz istifadə edirik. Məhsulumuzun bazarı vardır. Bu gün ailələrimizlə bu yaylaqlarda məskən salmağımızın bir səbəbi də ordumuza, əsgərlərimizə olan güvənimizdir. Bilirik ki, torpaqlarımız göz bəbəyi kimi qorunur. Bu gün xalqımızla ordumuz arasındakı birliyin bir nümunəsini də oba sakinləri ilə burada xidmət edən əsgərlər arasında yaratmışıq. Qüdrətli ordumuz güvən yerimiz, dayağımızdır. Biz də çalışacağıq ki, təsərrüfatlarımızı daha da genişləndirək, ölkəmizin inkişafında pay sahibi olaq.



Ali Məclisin Sədri heyvandarlıqla məşğul olanlara təşəkkürünü bildirmiş, onlarla şəkil çəkdirmiş, ailə üzvlərinə və uşaqlara hədiyyələr təqdim etmişdir.

Məlumat verilmişdir ki, yaylaqlarda Ordubad rayonunun Kotam, Babək rayonunun Naxışnərgiz, Kəngərli rayonunun Çalxanqala və Xok, Culfa rayonunun Bənəniyar kəndlərindən 10 oba vardır. “Gen yurdu”, “Xan çeşməsi”, “Tüklü çəmən”, “Əyriçay”, “Çadırdaş” və digər obalarda 30 ailə heyvandarlıqla məşğuldur. Onların təsərrüfatında 20 mindən artıq iribuynuzlu və xırdabuynuzlu heyvan saxlanılır. Burada ekoloji cəhətdən təmiz süd məhsulları istehsal olunur. İstehsal olunan süd məhsulları ərazidəki bulaq sularından istifadə edilərək yaradılan təbii soyutma sistemində saxlanılır və satışa çıxarılır. “Xan çeşməsi” obasında məskən salan heyvandar Əmir Məmmədov isə öz təsərrüfatının imkanlarını xeyli genişləndirmiş, məhsuldar cins keçi sortlarının artırılmasına başlamış, oba şəraitində mexaniki sağım aparatı quraşdırmışdır.

Qeyd olunmuşdur ki, baytarlar və kənd təsərrüfatı mütəxəssisləri mütəmadi olaraq yaylaqlarda olur, təbii sərvətlərimizdən səmərəli istifadə ilə bağlı oba sakinləri arasında söhbətlər aparılır, tövsiyələr verilir. Bütün bunların nəticəsidir ki, təsərrüfatlarda saxlanılan mal-qaranın və heyvanların cins tərkibi yaxşılaşdırılır, məhsuldarlıq artırılır. Heyvandarlar yaylaqlarda digər təsərrüfat sahələri ilə də məşğul olur. Bu il obalarda 10 hektardan artıq sahədə kartof əkilmişdir.

Ali Məclisin Sədri bundan sonra da yaylaqlarda heyvandarlar üçün hərtərəfli şəraitin yaradılacağını bildirmiş, təbii sərvətlərimizdən səmərəli istifadə olunmasının vacibliyini qeyd etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Birinci yarımildə muxtar respublikada tikinti-quruculuq işlərinin həcmi genişlənib

***Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində cari ilin birinci yarısının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib. İclası Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov açıb.***



Komitə sədrinin müavini Hicran Rüstəmov 2016-cı ilin birinci yarısında görülən işlər və qarşıda duran vəzifələr barədə danışıb. Bildirib ki, 2016-cı ilin yanvar-iyun ayları ərzində muxtar respublikada 34 milyon 106 min 200 manat həcmində tikinti işləri yerinə yetirilib. Bu dövrdə Şərur rayonunun Oğlanqala, Babək rayonunun Xəlilli, Yarımca, Şahbuz rayonunun Daylaqlı, Culfa rayonunun Saltaq, Kəngərli rayonunun Yurdçu kəndlərində məktəb binalarının tikintisi və yenidən qurulması başa çatdırılaraq istifadəyə verilib. Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin, Naxçıvan Müəllimlər İnstitutunun, Naxçıvan Dövlət Texniki Kollecinin, Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin, Naxçıvan şəhərinin Tumbul, Şərur rayonunun Çəmənli, Arbatan, Culfa rayonunun Gülüstan, Babək rayonunun Məzrə, Şahbuz rayonunun Kolanı, Ordubad rayonunun Baş Dizə kəndlərində məktəb binalarının, Şərur şəhər 2 nömrəli tam orta məktəbin, Şərur şəhərində Fizika-Riyaziyyat Təmayüllü Liseyin tikintisi və yenidən qurulması davam etdirilir.

Diqqətə çatdırılıb ki, cari ilin birinci yarısında Babək rayonunun Yarımca və Culfa rayonunun Saltaq kəndlərində həkim ambulatoriyalarının tikintisi başa çatdırılıb. Culfa rayonunun Xanəgah kəndində isə həkim ambulatoriyasının tikintisi davam etdirilir.

Muxtar respublikanın kənd yaşayış məntəqələrində əhalinin sosial-məişət şəraitinin yaxşılaşdırılması, yerli idarəetmə orqanları üçün normal iş şəraitinin yaradılması məqsədilə tədbirlər görülüb, Şərur rayonunun Oğlanqala, Kəngərli rayonunun Yurdçu, Babək rayonunun Xəlilli, Yarımca, Culfa rayonunun Saltaq kəndlərində kənd mərkəzləri tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi binasının yenidən qurulması, Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin inzibati binasının, Şərur rayonunun Arbatan, Arpaçay, Çəmənli, Babək rayonunun Məzrə, Hacıvar, Culfa rayonunun Gülüstan, Ordubad rayonunun Baş Dizə, Naxçıvan şəhərinin Bulqan, Tumbul yaşayış məntəqələrində kənd mərkəzlərinin tikintisi isə davam etdirilir.

Bildirilib ki, Culfa rayonunun Saltaq, Şərur rayonunun Oğlanqala, Kəngərli rayonunun Yurdçu kəndlərinin avtomobil yollarında asfalt-beton işləri başa çatdırılıb. Şərur rayonunun Çəmənli, Arbatan, Culfa rayonunun Gülüstan, Babək rayonunun Məzrə, Gərməçataq və Ordubad rayonunun Baş Dizə kəndlərində avtomobil yollarının, yaşayış məntəqələrindəki körpülərin tikintisi və yenidən qurulması davam etdirilir. Culfa şəhərində giriş avtomobil yolundakı körpü yenidən qurulur və Gülüstan kənddaxili avtomobil yolunda körpünün tikintisi aparılır.

Məruzə ətrafında müzakirələrdə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Babək, Kəngərli, Ordubad Rayon idarələrinin rəisləri Rəvayət İmanovun, Vəzir Əliyevin, Əkrəm Salmanovun çıxışları olub.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov çıxış edərək birinci yarımildə aparılan tikinti-quruculuq tədbirlərindən və işdə buraxılan nöqsanlardan danışıb. Bildirilib ki, 2016-cı ilin birinci yarısında tikinti işlərində əldə edilən uğurlarla yanaşı, bir sıra nöqsan və çatışmazlıqlar da müşahidə olunub. Keyfiyyətsiz iş, israfçılıq, məsuliyyətsizlik komitənin idarə və müəssisələrində özünü göstərib. Bu baxımdan podratçı təşkilatın işinə nəzarət ciddi surətdə aparılmalı və nəzarət mexanizminin gücləndirilməsi üçün müvafiq tədbirlər görülməlidir.

Bu ilin 6 ayında çatışmazlıqlar və ciddi nöqsanlar, əsasən, komitənin Şərur Rayon İdarəsinin işlərində daha çox müşahidə olunub. İdarə obyektlərdə iş zamanı tələskənliyə yol verir, keyfiyyətsiz işlər görür ki, bu da əlavə xərc hesabına başa gəlir.

Qeyd olunan çatışmazlıqların yaranmasında komitənin də səhvləri vardır. Belə ki, komitənin texniki nəzarətçiləri obyektlərdə keyfiyyətsiz işlərə yol verilməməsi üçün diqqəti daha da artırmalı, nizam-intizamı, eləcə də nəzarəti gücləndirməlidirlər.

**Muxtar MƏMMƏDOV**

## Cari ilin birinci yarısının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində keçirilən kollegiya iclasını ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov açıb.***



Bildirilib ki, 2016-cı ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası ərazisində mövcud ekoloji vəziyyətin (ekoloji tarazlığın) qorunması, ətraf mühitin mühafizəsi, əlverişli ekoloji mühitin yaradılması məqsədilə dövlət ekoloji siyasəti uğurla davam etdirilib. Naxçıvan Muxtar Respublikasının təbii iqlimi və relyef xüsusiyyətləri nəzərə alınaraq, xüsusilə muxtar respublikamızda aqrar sənaye potensialının inkişafı, yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması ekoloji tarazlığın qorunması sahəsində ən mühüm ekoloji amil kimi meşələrin qorunması, yaşıllıqların artırılması tədbirlərinin həyata keçirilməsini zəruri edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu sahənin inkişafı məqsədilə təsdiq etdiyi dövlət proqramlarına və digər normativ-hüquqi aktlara uyğun olaraq, birinci yarımildə də bu sahədə müvafiq tədbirlər həyata keçirilib. Belə ki, yaz əkini mövsümündə muxtar respublika ərazisində – şəhər, qəsəbə və kəndlərdə, sututarların, su kanallarının ətrafında, magistral yolların kənarlarında, ümumilikdə, 246,2 hektar sahədə meşəsalma və meşəbərpa tədbirləri həyata keçirilib, yeni meyvə bağları salınıb. Yaşıllaşdırma tədbirlərində 216 min 360 ədəd meşə və meyvə tingi, həmişəyaşıl ağaclar, bəzək kolları əkilib. Nazirlik tərəfindən yaz əkini mövsümündə 73,5 hektar sahədə ting və toxumla bərpa işləri görülüb. Həyata keçirilən meşəsalma, meşəbərpa tədbirlərində və yeni meyvə bağlarının salınmasında, ümumilikdə, 85 min 600 ədəd olmaqla, 19 min ədəd meşə, 48 min ədəd meyvə, 18 min 600 ədəd həmişəyaşıl tinglər, bəzək və gül kolları əkilib. Qeyd olunub ki, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq, meyvəçiliyin inkişaf etdirilməsi məqsədilə Naxçıvan şəhərində 6,5 hektar, Babək rayonunda 4,5 hektar, Ordubad rayonunda 11,5 hektar, Kəngərli rayonunda 8,8 hektar, Şərur rayonunda 13,5 hektar, Culfa rayonunda 10,2 hektar, Şahbuz rayonunda 4,7 hektar, Sədərək rayonunda isə 2,4 hektar ərazidə yeni meyvə bağları salınıb, ümumilikdə, 42 min 400 ədəd meyvə tingi əkilib.

Təbii sərvətlərdən istifadəyə, çirkləndirici maddələrin ətraf mühitə atılması və axıdılmasına görə ekoloji ödənişlərin təyin edilməsi və icrasına nəzarətin həyata keçirilməsinin diqqətdə saxlanıldığını deyən nazir qeyd edib ki, muxtar respublika ərazisində fəaliyyət göstərən 34 müəssisəyə 63 min 365 manat məbləğində ekoloji ödəniş haqqı tətbiq edilib, 65 faizinin icrası həyata keçirilib. Vurğulanıb ki, ekologiya sahəsində Azərbaycan Respublikasının mövcud qanunlarına, bu sahədə qəbul edilmiş müvafiq normativ-hüquqi aktlara uyğun olaraq muxtar respublika ərazisində ətraf mühitin mühafizəsi, ekoloji qanunazidd halların qarşısının alınması məqsədilə aidiyyəti orqanlarla birlikdə 61 yoxlama-reydlər keçirilib, 4 qanunazidd hal aşkar edilərək qanunamüvafiq tədbirlər görülüb.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda keçirilən kollegiya iclasında fondun sədri Əli Quliyev məruzə ilə çıxış edib.***

Qeyd edilib ki, 2016-cı ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun hesabına 26 milyon 264 min manat plana qarşı, 31 milyon 864 min 390 manat vəsait daxil olub. Daxil olan vəsait nəzərdə tutulan məbləğdən 5 milyon 600 min 390 manat, yaxud 21,3 faiz, 2015-ci ilin müvafiq dövründə yığılan vəsaitdən isə 1 milyon 409 min 650 manat, yaxud 4,6 faiz çoxdur.

Hesabat dövründə məcburi dövlət sosial sığorta haqlarının onlayn ödənilməsi prosesi davam etdirilib. İndi məcburi dövlət sosial sığortahaqqı ödəyiciləri istənilən yerdə internetə daxil olaraq məcburi dövlət sosial sığorta haqlarını plastik kartlar vasitəsilə və ya banklarda nağd qaydada onlayn ödəyə bilirlər. 2016-cı ilin iyun ayında 2111 sığortaedən tərəfindən 79 min 721 manat məcburi dövlət sosial sığortahaqqı "onlayn ödəmə" sistemi vasitəsilə ödənilib. 2014-cü ilin noyabr ayından etibarən kənd yerlərində fəaliyyət göstərən, fərdi qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olan və torpaq mülkiyyətçisi olan sığortaedənlərin məcburi dövlət sosial sığorta haqlarının kəndlərdə poçt şöbələri vasitəsilə ödənilməsi də təşkil edilib. 2016-cı ilin iyun ayında 4348 nəfər sığortaedən tərəfindən 47 min 329 manat məbləğində məcburi dövlət sosial sığortahaqqı poçt şöbələri vasitəsilə ödənilib.

Qeyd edilib ki, muxtar respublikada sahibkarlıq fəaliyyətinin genişlənməsinin, davamlı sosial-iqtisadi yüksəlişin, yeni istehsal, emal, ticarət, xidmət obyektlərinin yaradılmasının, aparılan tikinti-quruculuq işlərinin və yeni açılan iş yerlərinin nəticəsidir ki, əmək pensiyaları və müavinətlərin ödənişi üçün tələb olunan vəsaitin 51,1 faizi sığortaedənlərdən məcburi dövlət sosial sığortahaqqı şəklində yığılıb.

Hazırda muxtar respublika üzrə ödəniş aparılan pensiyaçıların 100 faiz plastik kartlarla təmin edildiyini diqqətə çatdıran Əli Quliyev bildirib ki, hesabat dövründə daha 3323 sığortaolunan sosial sığorta şəhadətnaməsi ilə təmin edilib. Beləliklə, fərdi uçot sistemində qeydə alınaraq sosial sığorta şəhadətnaməsi alan sığortaolunanların sayı 162 min 974 nəfərə çatıb.

Vurğulanıb ki, "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Elektron Hökumət Portalına və Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun internet səhifəsinə inteqrə edilmiş 20 elektron xidmətdən 15-i istifadəyə verilib.

Avtomatlaşdırılmış pensiya təyinatı sisteminə keçidlə bağlı xüsusi proqram təminatı vasitəsilə 2006-2015-ci illər üzrə sığortaolunanlar haqqında məlumatlar, həmçinin sığortaolunanların 2006-cı il 1 yanvar tarixədək bütün əmək fəaliyyəti dövrləri onlar üçün fondda açılmış fərdi şəxsi hesablara işlənilib və 2014-cü ilin noyabr ayından etibarən avtomatlaşdırılmış qaydada əmək pensiyalarının təyinatına başlanılıb. 2016-cı ilin birinci yarısında 68 nəfərə bu sistem vasitəsilə yaşa görə əmək pensiyası təyin edilib.

Sonra Dövlət Sosial Müdafiə Fondunun Naxçıvan şəhər, Culfa və Ordubad Rayon şöbələrinin müdirləri Səfər Əhmədov, Vüsal Məmmədzadə və Bayram Yusifov görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı çıxışlar ediblər.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədri Əli Quliyev yekun vurub.

***Cari ilin birinci yarısında Babək rayonunun sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş müşavirəni rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov açıb.***



Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında həyata keçirilən məqsədyönlü sosial-iqtisadi siyasət nəticəsində muxtar respublika iqtisadiyyatı yüksək sürətlə inkişaf edib, iqtisadi inkişafa nail olunub. Həyata keçirilən tədbirlərdən Babək rayonuna da xeyli pay düşüb. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə əlaqədar 2016-cı ilin birinci yarısında Babək rayonunda bir sıra işlər görülüb. Belə ki, Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasının Babək rayonunda Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması ilə bağlı əlavə tədbirlər haqqında" 20 may 2016-cı il tarixli Sərəncamına əsasən, 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulmasının ikinci mərhələsi davam etdirilir. Bununla yanaşı, Cəhri-Buzqov avtomobil yolundan Gərməçataq kəndinədək 6 kilometr uzunluğunda avtomobil yoluna qum-çınqıl qatı verilərək torpaq işləri başa çatdırılıb, selötürücülər tikilib, suötürücü borular salınıb. Hazırda yeni körpünün tikintisi davam etdirilir. Yarımca kəndində isə kənd mərkəzinin, həkim ambulatoriyasının, xidmət mərkəzinin tikintisi, kənd tam orta məktəbinin isə əsaslı şəkildə yenidən qurulması başa çatdırılıb, Xəlilli kəndində kənd mərkəzi, tam orta məktəb binası və xidmət mərkəzi üçün yeni binalar tikilib. Hazırda Məzrə kəndində məktəb binasının, kənd və xidmət mərkəzlərinin inşası, Hacıvar kəndində kənd və xidmət mərkəzlərinin, Badaşqan kəndində isə xidmət mərkəzinin tikintisi davam etdirilir.

Qeyd olunub ki, Babək rayonu aqrar rayon olduğundan burada kənd təsərrüfatının inkişaf etdirilməsi də diqqət mərkəzində saxlanılır. Rayonda 2016-cı ilin məhsulu üçün 9167 hektar sahədə taxıl əkini aparılıb və taxıl biçini başa çatdırılıb. Eyni zamanda cari ilin əkini üçün 16172 hektar sahədə əkin aparılıb. 2016-cı ilin birinci yarısında "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə güzəştli şərtlərlə dövlət tərəfindən sahibkarlara 28 ədəd texnika və texnoloji avadanlıqlar lizinq yolu ilə satılıb.

Rayonda həyata keçirilən ekoloji tədbirlərdən də bəhs edən icra başçısı bildirib ki, cari ilin birinci yarısında ekoloji tarazlığın qorunması məqsədilə keçirilən iməciliklərdə yeni meyvə bağları salınıb, yol kənarlarında, qəsəbə və kəndlərdə yaşıllaşdırma işləri aparılıb, ümumilikdə, 4,5 hektar ərazidə meşəsalma, 4 hektar sahədə meşəbərpa tədbirləri həyata keçirilib.

İcra başçısı qeyd edib ki, 2016-cı ilin birinci yarısı Babək rayonunda aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsi ilə də yadda qalıb. Belə ki, bəhs edilən dövrdə rayon Məşğulluq Mərkəzi tərəfindən 222 nəfər vətəndaş qeydiyyata alınıb, bunlardan 190 nəfəri işlə təmin olunub. 51 nəfər işaxtaran vətəndaş müxtəlif peşə kurslarına göndərilib. Ümumilikdə, cari ilin ilk 6 ayında rayonda 259 yeni iş yeri açılıb ki, bunun da 191-i daimi iş yeridir.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

***Bu ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin gəlirləri 34858,4 min manat və ya 110,5 faiz icra olunub. Büdcə daxilolmalarının 82,4 faizi və ya 28712,1 min manatı muxtar respublika Vergilər Nazirliyi tərəfindən, 13,7 faizi və ya 4788,3 min manatı isə Dövlət Gömrük Komitəsi tərəfindən təmin edilib. Bundan başqa, büdcəyə daxilolmaların 3,4 faizi və ya 1185,6 min manatı büdcə təşkilatlarının ödənişli xidmətlərindən, 172,4 min manatı və ya 0,5 faizi isə digər daxilolmalar vasitəsilə təmin olunub.***

Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsində keçirilən 2016-cı ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunan iclasda bu göstəriciləri idarənin rəisi Fazil İbrahimov tədbir iştirakçılarının diqqətinə çatdırıb.



İdarə rəisi yarımillik nəticələrlə bağlı məruzəsində onu da qeyd edib ki, büdcə gəlirlərinin 52,6 faizi, yaxud 18316,7 min manatı əlavə dəyər vergisindən, 23,7 faizi, yaxud 8271,1 min manatı fiziki şəxslərdən gəlir vergisindən, 8 faizi, yaxud 2794,0 min manatı dövlət rüsumundan, 4,1 faizi, yaxud 1412,7 min manatı sadələşdirilmiş vergidən əldə edilib. Bundan başqa, gəlirlərin 1,8 faizi, 608,9 min manatı aksiz vergisindən, 1,7 faizi, 582,3 min manatı əmlak vergisindən, 1,6 faizi, 567,0 min manatı idxal rüsumundan daxil olub. Gəlirlərin 1,3 faizi, 446,4 min manatı hüquqi şəxslərdən mənfəət vergisindən, 0,9 faizi, 335,9 min manatı vergi olmayan digər daxilolmalardan, 0,6 faizi, 218,9 min manatı yol, 0,2 faizi, yaxud 81,0 min manatı mədən, 0,1 faizi, yaxud 38,0 min manatı hüquqi şəxslərin torpaq vergisindən daxil olub.

Dövlət büdcəsinin xərcləri göstəricilərinə də məruzəsində yer verən Fazil İbrahimov qeyd edib ki, bu ilin birinci yarısında xərclər 168620,2 min manat və ya 99,8 faiz icra olunub. Büdcə vəsaitinin 23,5 faizi, 39692,3 min manatı təhsilə, 13,4 faizi, 22638,8 min manatı məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarının saxlanılmasına, 11,5 faizi, 19452,5 min manatı sənaye, tikinti və faydalı qazıntılar xərclərinə yönəldilib. Bundan başqa, büdcə vəsaitinin 9 faizi, 15216,2 min manatı əsas bölmələrə aid edilməyən xidmətlərə, 8,7 faizi, 14587,5 min manatı kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi xərclərinə, 7,2 faizi, 12129,7 min manatı qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının saxlanılmasına, 7,2 faizi, 12043,6 min manatı səhiyyə xərclərinə, 4,8 faizi 8100,3 min manatı mənzil və kommunal təsərrüfatı xərclərinə ayrılıb. Vəsaitin 4,5 faizi, yaxud 7638,6 min manatı sosial müdafiə və sosial təminat, 3,9 faizi, yaxud 6592,4 min manatı nəqliyyat və rabitə, 2,7 faizi, yaxud 4598,2 min manatı mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət, 1,7 faizi, 2817,2 min manatı müdafiə, 1,0 faizi, yaxud 1660,5 min manatı iqtisadi fəaliyyət, 0,9 faizi, 1452,5 min manatı elm xərclərinin maliyyələşdirilməsinə yönəldilib.

Məruzədə bildirilib ki, Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin 2016-cı ilin birinci yarısında təsdiq olunmuş iş planına uyğun olaraq muxtar respublikanın dövlət büdcəsinin xərclərinə maliyyə-büdcə nəzarəti tədbirləri çərçivəsində idarə tərəfindən 4 müəssisə, idarə və təşkilatlar üzrə təhlil işləri və 4 müəssisə, idarə və təşkilatlarda audit yoxlamaları aparılıb. İdarə tərəfindən 4 təşkilat üzrə aparılan analitik təhlillə maliyyə hesabatlarının düzgün doldurulmadığı müəyyən edilib. İdarə tərəfindən aparılan audit tədbirləri ilə 2 təşkilatda tarif səhvi nəticəsində 11 nəfərə 2651,10 manat artıq əməkhaqqının ödənildiyi müəyyən edilib. Görülmüş tədbirlər nəticəsində həmin vəsait büdcəyə bərpa olunub.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Azərbaycan Kinosu Günü qeyd olunub

***Ümummilli liderimiz Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli "Azərbaycan Kinosu Gününün təsis edilməsi haqqında" Sərəncamına əsasən, hər il 2 avqust ölkəmizdə "Azərbaycan Kinosu Günü" kimi qeyd olunur.***





Dünən bu münasibətlə Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə "Gənclik" Mərkəzinin foyesində Azərbaycan Kinosu Gününə həsr edilmiş sərgi ilə tanış olublar.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyev milli kinomuzun inkişafına həmişə böyük diqqət və qayğı göstərib. Ulu öndər deyirdi: ***"Bəşəriyyət qarşısında kinonun xidmətləri böyükdür. Amma bizim xalqımızın inkişaf yolunda Azərbaycan kinosunun xidmətləri əvəzsizdir".***

Maraqlı inkişaf yolu keçən kino tariximizə 1935-ci ildə çəkilmiş "Mavi dənizin sahilində" bədii filmi Azərbaycanda ilk səsli kino kimi daxil olub. Dünya kinosunun 100 illiyi münasibətilə ən nüfuzlu kinoşünaslar arasında keçirilən sorğuya əsasən, bu film dünya kinosunun ən yaxşı 10 ekran əsəri siyahısına daxil edilib. 1937-ci ildə çəkilən "Dəcəl dəstə" filmində ilk azərbaycanlı qadın kinorejissor, tanınmış şairimiz Əliqulu Qəmküsarın qızı Qəmər Salamzadə fəaliyyətə başlayır. Azərbaycan kino sənətinin inkişafında bu dövrdə Naxçıvan torpağının yetirdiyi görkəmli sənətkarlardan olan Rza Təhmasib də fəal iştirak edir. 1945-ci ildə çəkilən "Arşın mal alan" filmindən sonra Azərbaycan kinosunda musiqili ekran janrına meyil güclənir.

Bildirilib ki, Azərbaycan kino tarixinin əsl inkişaf dövrü sayılan 1970-1980-ci illərdə kino salnaməmizin unudulmaz səhifələrini təşkil edən, mədəniyyətimizin qızıl fonduna daxil olan tarixi filmlər yaradılıb, digər görkəmli əsərlər ekranlaşdırılıb, müasir mövzulu və sənətkarlıq baxımından diqqətəlayiq filmlər çəkilib. Azərbaycan kinosunun bir sıra filmləri bu illərdə beynəlxalq kino festivallarında və müsabiqələrində yüksək mükafatlar alıb. Müstəqillik illərində də kinoya xüsusi diqqət yönəldilməsi məhz ulu öndərin adı ilə bağlıdır. Dahi rəhbərin 1998-ci il 19 avqust tarixli Fərmanı ilə "Kinematoqrafiya haqqında" Qanun qəbul edilib.

Bu gün ümummilli liderimizin kinonun inkişafı üçün gördüyü işlər ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə Prezidentinin 2007-ci il 23 fevral tarixdə imzaladığı "Kino sənətinin inkişafı haqqında" Sərəncam bunun bariz ifadəsidir. Digər bir qayğı isə ölkə başçısının 2008-ci il 4 avqust tarixli Sərəncamı ilə "Azərbaycan kinosunun 2008-2018-ci illər üçün inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsidir.

Qeyd olunub ki, müstəqillik illərində çəkilən "Ovsunçu", "Yuxu", "Aktrisa", "Sahə", "İstanbul reysi", "Qala", "Hökmdarın taleyi", "Çölçü", "Sübhün səfiri", "Tərsinə çevrilən dünya", "Cavad xan", "Buta", "Nabat", "Xoca", "Dolu" və başqa bədii filmlər kinosevərlər tərəfindən maraqla qarşılanıb.

"Bu gün milli kinomuzun müraciət etdiyi mövzulardan biri də Qarabağ müharibəsidir. Azərbaycanlıların öz yurd-yuvalarından didərgin salınması, ermənilərin Azərbaycan torpaqlarında törətdikləri vəhşiliklər bu filmlərin əsas süjet xəttini təşkil edir", – deyən nazir diqqətə çatdırıb ki, son illər Azərbaycan kino sənəti Kann, Karlovı Varı, Berlin, Oberhauzen, Madrid, Moskva, Venesiya və başqa onlarla nüfuzlu festivallarda uğurla təmsil olunub.

Sonra Naxçıvan Dövlət Film Fondunun direktoru Mirakif Seyidov çıxış edərək Azərbaycan kinosunun inkişaf yolundan danışıb. Vurğulanıb ki, bu gün muxtar respublikada kinoya böyük diqqət göstərilir. Naxçıvan şəhərində "Gənclik" Mərkəzi, Şahbuz şəhərində "Araz", Şərur şəhərində "Bahar" kinoteatrları, Babək rayonunda mədəniyyət evi ən müasir videoproyektorlarla, texniki avadanlıqlarla təchiz olunub.

Muxtar respublikamızda fəaliyyət göstərən Dövlət Film Fondu da hərtərəfli qayğı ilə əhatə edilib. Fondun Naxçıvan televiziyası, "Kanal 35" televiziyası, "Gənclik" Mərkəzi, kinoteatrlar, mədəniyyət müəssisələri, təhsil ocaqları və hərbi hissələrlə geniş əlaqələri vardır.

Sonda 1973-cü ildə çəkilmiş "Nəsimi" filmi nümayiş etdirilib. Qeyd edək ki, tanınmış yazıçılarımız Həsən Seyidbəyli və İsa Hüseynovun ssenarisi əsasında ekranlaşdırılan filmin müəyyən hissələri Culfa rayonu ərazisindəki Əlincəqala ətrafında çəkilib. Filmdə Azərbaycan kinosunun görkəmli sənətkarları Rasim Balayev (Nəsimi), İsmayıl Osmanlı (Nəimi), Məmmədrza Şeyxzamanov (Şeyx Əzəm), Səməndər Rzayev (Şirvanşah İbrahim), Yusif Vəliyevlə (Əmir Teymur) bərabər, naxçıvanlı aktyorlar da çəkiliblər. Görkəmli bəstəkarımız Tofiq Quliyevin gözəl musiqisi və Nəsiminin qəzəlləri əsasında yazdığı melodiyalar filmin təsir qüvvəsini daha da artırıb. Orta əsrlərin zülməti içərisində günəş kimi parlayan böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin mürəkkəb və faciəli taleyi fonunda tamaşaçı həm də xalqımızın yadelli işğalçılara qarşı apardığı qanlı mübarizənin şahidi olur. Filmdə dövrün haqsızlıqlarına qarşı çıxan Nəsimi humanist şair və filosof kimi canlandırılıb. Böyük şairin 600 illik yubileyinin YUNESKO tərəfindən bütün dünyada qeyd edildiyi illərdə çəkilmiş "Nəsimi" bədii filmi kinomuzun qızıl fonduna daxil olub və bir sıra mükafatlara layiq görülüb.

**Əli RZAYEV**

# Ordubad rayonunda növbəti əmək yarmarkası keçirilib

Bu münasibətlə keçirilən tədbiri Ordubad Rayon Məşğulluq Mərkəzinin direktoru Telman Həsənov açaraq bildirib ki, vətəndaşların səmərəli məşğulluğunun təmin olunması, onların sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarının inkişafı muxtar respublikamızda daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Bu baxımdan yeni müəssisələrin fəaliyyətə başlamasına, sahibkarlığın inkişaf etdirilməsinə xüsusi önəm verilir. İşaxtaran vətəndaşların, xüsusilə gənclərin işlə təmin olunması sahəsində mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biri də muxtar respublikada müntəzəm olaraq keçirilən əmək yarmarkalarıdır. İndiyədək təşkil olunan əmək yarmarkalarında yüzlərlə rayon sakini işlə təmin olunub. Cari ildə də bu ənənə davam etdirilir.

Ordubad Rayon İcra Hakimiyyətinin əməkdaşı Əli Heydərov çıxışında qeyd edib ki, rayonda aparılan tikinti-quruculuq tədbirləri mühüm infrastruktur obyektlərinin yaradılması ilə yanaşı, işaxtaran vətəndaşların da məşğulluq problemlərinin həllinə töhfə verir. Eyni zamanda idarə və müəssisələrdə müxtəlif ixtisas və peşələr üzrə yaranmış boş iş yerləri qeyri-məşğul əhalinin işlə təmin olunması üçün geniş imkanlar açır.

Sonra yarmarkaya gələnlər onlara təqdim olunan vakant iş yerləri ilə tanış olublar. 18 təşkilatdan 145 boş iş yerinin çıxarıldığı yarmarkada 17 nəfərə işə göndəriş verilib.

**Xəbərlər şöbəsi**

# İdmançılarımız ölkə və dünya çempionatlarının qalibi olub

Bakı şəhərində yeniyetmələr arasında ağırlıqqaldırma üzrə "Zirvə" İdman Klubunun zona birinciliyi keçirilib. Birincilikdə 67 kiloqram çəki dərəcəsində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən ağır atletika bölməsinin yetirməsi Tərmenxan Babayev də çıxış edib. O, öz çəki dərəcəsində bütün rəqiblərini qabaqlayaraq birinciliyin qalibi olub.

Qeyd edək ki, Tərmenxan Babayev sentyabr ayında Polşada keçiriləcək Avropa birinciliyinə lisenziya əldə edib.

* * *

Almaniyanın Essen şəhərində kikboksinq üzrə dünya çempionatı keçirilib. Mundialda Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının yetirməsi Həsən Əliyev də mübarizə aparıb. 95+ kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız bütün rəqiblərinə qalib gələrək dünya çempionu adına layiq görülüb.

**Ceyhun MƏMMƏDOV**

# Yaxşı sənətkar kiməsə möhtac olmaz

***2005-ci ildə Naxçıvanda məcburi köçkün ailələrinə mənzillərin verilməsini yaxşı xatırlayıram. Hər dəfə o evlərin birinin qarşısından keçəndə həyətdə gördüyüm müxtəlif əl işləri həmişə diqqətimi çəkib. Həmin əl işlərinə muxtar respublikanın müxtəlif ünvanlarında da rast gəlmişəm. Bu sənət nümunələrinin yaradıcısı Əkbər Vəliyevdir.***



O, 1967-ci ildə Qərbi Azərbaycanda anadan olub. Məlum hadisələrə görə ailəsi ilə 1988-ci ildə ata-baba torpağını tərk etmək məcburiyyətində qalıb Naxçıvana gəliblər. İlk günlər bir çox çətinliklərlə üzləşsələr də, o günlərin ömrü az olub. Ailəsi ilə bu diyarda dövlətimizin qayğısı ilə özünə gün-güzəran qurub. Ən böyük qayğı isə ailənin dövlətimiz tərəfindən evlə təmin edilməsi olub. Məzar daşları düzəldib satan Əkbər bu yolla ailəsini dolandırmağa başlayır. Onun dediklərindən:

– Anam yaxşı xalçalar toxuyardı. Taxtalar və daşlar üzərinə naxışlar vurardı. Biz ailədə 6 qardaş idik. Hamımız da anamıza kömək edirdik. Sonradan qardaşlarım müxtəlif əl işləri düzəldib sataraq bu yolla çörəkpulu qazanmağa başladılar. Mən də əvvəllər məzar daşları düzəldirdim. Sonra isə daşlardan müxtəlif fiqurlar düzəltməyə başladım. Gördüm ki, insanların diqqətini çəkə bilirəm. Hər işim ərsəyə gəldikdən sonra uşaq kimi sevinirəm.

Əkbər Vəliyevlə söhbətləşə-söhbətləşə əl işləri ilə tanış oluruq. Həvəskar ustanın əl işlərinə heyran olmamaq mümkün deyil. Sanki bu saat üzəcək balıqlar, bir azdan ürküb qaçacaq ceyran firuqlarının yanından etinasız ötmək olmur. Əkbər usta deyir ki, ən çox ceyran fiqurları hazırlayıram. Çünki bu fiqurlara tələbat daha çoxdur. Sevgi, həvəs, məqsəd, zəhmət bir arada olanda yaradılan əsərlər də belə gözəl olur.

Əkbər ustanın maraqlı əl işlərindən biri də bulaq başı üçün daşdan və mərmərdən hazırladığı nümunələrdir. Artıq bir çox kəndlərdə Əkbər ustanın əl işlərini görmək olar.

Sexdə alıcılarla da həmsöhbət oldum. Naxçıvan şəhər sakini Toğrul Əliyev dedi ki, yeni tikdirdiyi həyət evinin qarşısına düzmək üçün müxtəlif heyvan fiqurları almağa gəlib. Bildirdi ki, bu fiqurları müxtəlif restoranların həyətlərində görüb. Çox xoşuna gəlib. Bunları düzəldən ustanın adını öyrənib.

Söhbətimizin sonunda Əkbər Vəliyev dedi:

– Yaratdığım bu fiqurlar, əsasən, iaşə obyektləri, həyət evləri üçün alınır. Muxtar respublika günü-gündən inkişaf edir. Gözəl evlər tikilir. Bu inkişafın nəticəsidir ki, mənim yaratdığım əsərlərin alıcısı da çoxalır. Çalışıram ki, düzəltdiyim fiqurlar cəlbedici və keyfiyyətli olsun. Şükür, ailəmin dolanışığını təmin edirəm. Hər dəfə hansısa bir fiquru düzəldəndə müdriklərimizin çox dəyərli bir deyimi yadıma düşür: yaxşı sənətkar kiməsə möhtac olmaz...

**Sara ƏZİMOVA**

# 2016-cı ildə Naxçıvan Muxtar Respublikası üzrə taxıl yığımı haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Biçilən taxıl sahəsi (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 1111 | 3008 | 27,1 |
| 2. | Şərur rayonu | 7637 | 24117 | 31,6 |
| 3. | Babək rayonu | 9167 | 28587 | 31,2 |
| 4. | Ordubad rayonu | 1949 | 5290 | 27,1 |
| 5. | Culfa rayonu | 4466 | 12197 | 27,3 |
| 6. | Kəngərli rayonu | 3965 | 10782 | 27,2 |
| 7. | Şahbuz rayonu | 1337 | 3835 | 28,7 |
| 8. | Sədərək rayonu | 1947 | 6301 | 32,4 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **31579** | **94117** | **29,8** |

### *İtmişdir*

Kəngərli rayonunun Xok kənd sakini İsmayılova Gündüz İsmayıl qızının adına olan JN-354$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Çalxanqala kənd sakini Abdullayeva Nuridə Rəhman qızının adına olan 820$^{B}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 581